Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

# Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı

# 2019-2022-ci illər (YİT II)

## Regional layihə: Qadınların ədalət mühakiməsinə çıxışı: İstanbul Konvensiyası və digər Avropa gender bərabərliyi standartlarının həyata keçirilməsi

### Məqsəd nədir?

- Avropa Şurasının İstanbul Konvensiyasına uyğun olaraq qadınlar, xüsusilə zorakılıq qurbanı olan qadınlar üçün ədalət mühakiməsinə çıxış imkanlarını artırmaq və Şərq Tərəfdaşlığı ölkələrinin İstanbul Konvensiyasını ratifikasiya etməsi yönümündə işə töhfə vermək.

### Layihədən kim faydalanır?

- Ümumi ictimaiyyət
- Zorakılıq qurbanı olan qadınlar
- Hakimlər, prokurorlar, vəkillər və vətəndaş cəmiyyəti fəalları
- Qadınlara qarşı zorakılığa dair işlərlə məşğul olan hüquq mütəxəssisləri.

### Layihə necə işləyir?

- Milli hökumət orqanları ilə ikitərəfli iş və regional təcrübə mübadiləsi yolu ilə
- Şərq Tərəfdaşlığı proqramındakı bütün altı ölkədə qadınların ədalət mühakiməsinə çıxışı üzrə hakimlər və prokurorlar üçün mentorluq proqramlarının və hüquqi yardım təmin edən vəkillər üçün təlim proqramlarının işlənib hazırlanması
- Şərq Tərəfdaşlığı proqramındakı bütün altı ölkədə hüquq fakultələrinin tədris proqramına gender məsələlərinin daxil edilməsi
- Şərq Tərəfdaşlığı proqramındakı bütün altı ölkədə qadınların ədalət mühakiməsinə çıxışı imkanlarını qiymətləndirmək üzrə milli hökumət orqanlarının səriştəliliklərinin artırılması

### Nələrə nail olmağı gözləyirik?

- Hökumət orqanları, ədalət mühakiməsi sahəsində işləyən mütəxəssislər və vətəndaş cəmiyyəti ədalət mühakiməsinə çıxış yönümündə maneələri aradan qaldırmaq üçün İstanbul Konvensiyasının ədalət mühakiməsinə çıxış standartları üzrə yeni səriştəlilikləri tətbiq edirlər.
- Hökumət orqanları, ədalət mühakiməsi sahəsində işləyən mütəxəssislər və vətəndaş cəmiyyəti ədalət mühakiməsi sisteminin İstanbul Konvensiyasına və digər Avropa standartlarına uyğun şəkildə, xüsusilə də zorakılıq qurbanı olan qadınlara münasibətdə gender faktorlarını nəzərə almasını təmin etmək üçün təlimlər daxil olmaqla tədbirlər görür.

## Layihənin büdcəsi nə qədərdir?

- Ümumi büdcə 1 071 000 avro təşkil edir.
- Büdcənin 80%-i Avropa İttifaqı, 20%-i isə Avropa Şurası tərəfindən maliyyələşdirilr. Proqram Avropa Şurası tərəfindən həyata keçirilir.

## Layihənin müddəti nə qədərdir?

- Proqram 1 yanvar 2019-cu ildən 31 avqust 2022-ci ilə qədər davam edəcəkdir.

## Əlavə məlumatı necə əldə etmək olar?

- Avropa Şurası, Demokratiya məsələləri üzrə II Baş Direktorluq, Potensial artırılması və əməkdaşlıq üzrə layihələr şöbəsi, Gender bərabərliyi bölməsi

## Əlaqə Məlumatı


Strasburqdakı Layihə komandası:

- Marta Becerra, Şöbə rəhbəri
  marta.becerra@coe.int
- Anca Sandescu, Layihə rəhbəri
  anca.sandescu@coe.int


*Bu, Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı çərçivəsində (II mərhələ, həmçinin YİT II adlandırılır) həyata keçirilən, Şərq Tərəfdaşlığı ölkələrini əhatə edən (Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarus[1]) regional layihədir.*

*2014-cü ilin aprel ayında Avropa İttifaqı və Avropa Şurası, Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri olan Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarus ilə məqsədyönlü əməkdaşlıq fəaliyyətlərinin Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı çərçivəsində həyata keçiriləcəyi barədə razılığa gəldilər. Proqramın I mərhələsi (I YİT - I) 2015-ci ildə başlamış və 2018-ci ildə başa çatmışdır; proqramın ikinci mərhələsi (YİT - II) 2019-cu ildə başlamış və 2022-ci ilə qədər davam edəcəkdir.*

*Bu əməkdaşlıq fəaliyyətləri, Belarus istisna olmaqla, Avropa Şurasının üzvü olan Şərq Tərəfdaşlığı ölkələrini insan hüquqları, demokratiya və qanunun aliliyi sahələrində Avropa standartlarına yaxınlaşdırmaq məqsədilə daxili islahatlar həyata keçirmək potensialını artıracaqdır.*

[1] *Belarusdakı siyasi vəziyyətə görə, bu ölkə ilə əməkdaşlıq fəaliyyətləri dayandırılır və Avropa İttifaqı tərəfindən verilən məhdudlaşdırıcı tədbirlərə uyğun olaraq, YİT II-nin qalan icra müddəti üçün hələlik yeni tədbirlər planlaşdırılmır.*